**Həsənov E.R.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.65.24-37**
**UOT 343.24**

# Azərbaycanda cinayət-hüquqi xarakterli tədbir kimi xüsusi müsadirənin inkişafı tarixi (sovet hakimiyyətinə qədər olan dövr)

**Xülasə**: Cinayətkarlığa qarşı uğurlu mübarizə tədbirləri sırasında ictimai münasibətləri kriminal qəsdlərdən mühafizəsini nəzərdə tutan qanunvericiliyin dövrün tələblərinə uyğunlaşdırılması, zamanın çağırışlarına cavab verməyən normaların yenisi ilə əvəz olunması, elmi-nəzəri və təcrübi baxımdan əsaslandırılmış arqumentlər əsasında qanunvericilikdə təkmilləşdirmə işlərinin aparılması vacib məsələlərdən sayılır. Hazırkı dövrdə milli cinayət hüququnda azadlıqdan məhrum etmə ilə bağlı olmayan cinayət-hüquqi tədbirlərin işlənib hazırlanması və getdikcə təcrübədə möhkəmləndirilməsi işlərinə üstünlük verilir. Bu, təsadüfi meyl olmayıb, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkənin cinayət-hüquqi siyasətinin müəyyən edilməsi üzrə imzaladığı müvafiq sənədlərdən birbaşa doğan vəzifələrin yerinə yetirilməsi ilə bağlıdır.

Belə ki, dövlət başçısının imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prossessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamının icrası olaraq Prezident Administrasiyası tərəfindən hazırlanmış qanun layihəsi 20 oktyabr 2017-ci il tarixdə Milli Məclis tərəfindən qəbul edilmişdir. Həmin qanunla CM-nə cinayət-hüquqi siyasətin yumşaldılması istiqamətində mühüm dəyişikliklər edilmiş, cinayət məsuliyyətindən azad etmənin yeni mexanizmləri yaradılmış, iqtisadi sahədə törədilən bəzi cinayətlər dekriminallaşdırılmış, CM-də "Mülkiyyət əleyhinə olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə", "İqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə" adlı yeni məzmunlu 73-1 və 73-2-ci maddələr yaradılmış və bu yöndə sair dəyişikliklər edilmişdir.

Bundan başqa, dövlət başçısı 3 aprel 2019-cu il tarixdə "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilmısi haqqında" Fərman imzalamışdır. Ölkəmizdə məhkəmə hüquq islahatlarının yeni keyfiyyət mərhələsinin hüquqi əsası sayılan bu Fərmanda müvafiq dövlət orqanları qarşısında qoyulan vəzifələrdən biri məhz ölkədə cəza siyasətinin humanistləşdirilməsi, dekriminallaşdırma üzrə tədbirlərin davam etdirilməsidir.

Beləliklə, ölkədə cinayət-hüquqi siyasətin qeyd olunan istiqamətlər üzrə inkişafı cinayət-hüquqi xarakterli tədbirlərdən daha effektli istifadə olunması mövzusunu xeyli dərəcədə aktuallaşdırır. Müasir şəraitdə cinayət-hüquqi xarakterli tədbirlərin sırasında xüsusi müsadirənin özünəməxsus yeri vardır. Yeri gəlmişkən qeyd etməliyik ki, xüsusi müsadirə yalnız ağır və ya ictimai təhlükəliliyi yüksək olan cinayətlərə (məsələn, terrorçuluq, korrupsiya, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər və s.) qarşı mübarizədə deyil, bütövlükdə cinayətkarlığa

♦ **Həsənov Emin Rasif oğlu** - Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə ekspertizası Mərkəzinin dissertantı (Azərbaycan). E-mail: hasanovmin@yahoo.com

qarşı təsirin effektiv vasitələrindən biridir. Xüsusi müsadirə həmçinin cinayətkarlığa qarşı mübarizədə qabaqlayıcı tədbirlər sisteminin mühüm elementlərindən biri sayılır.

**Açar sözlər**: cinayət qanunvericiliyi; müsadirə; xüsusi müsadirə; cinayət cəzası; qanunnamə; müsəlman hüququ; məsuliyyət; hüquqi tənzimlənmə.

Milli cinayət hüququnda xüsusi müsadirə, indiki məzmun və formasında olmasa da, mahiyyət etibarı ilə uzun müddət ərzində mövcud olduğundan, hüquqi proseslərin inkişafı tarixində onun keçmişinə nəzər yetirilməsini məqsədəmüvafiq hesab edirik. Çünki hadisə və proseslərin mahiyyət və mənasının idrakı üçün onlara konkret tarixi münasibətin bəslənilməsi lazımdır. Keçmişin öyrənilməsi, müqayisəli təhlillərin aparılması reallıqların düzgün qiymətləndirilməsinə və hadisə və proseslərin perspektiv inkişafı üzrə uğurlu proqnozların müəyyən edilməsinə kömək edir. Hər hansı bir cinayət-hüquqi hadisə və ya prosesin tarixi aspektdə tədqiqi həmçinin onun cinayət qanunvericiliyi və nəzəriyyəsinin ümumi inkişaf tarixi kontekstində öyrənilməsini zəruri edir. Bu baxımdan xüsusi müsadirənin hüquqi inkişafını cinayət hüquqi xarakterli tədbirlərin, xüsusən, cəza institutunun ümumi inkişafı çərçivəsində nəzərdən keçirilməsi lazım gəlir. Digər tərəfdən, tarixilik metodunun başlıca şərtlərindən biri tədqiqatın mərhələlər (dövrlər) üzrə aparılmasıdır. Tarixi dövrlərin, mərhələlərin təsnifatı zamanı isə, şübhəsiz, cəmiyyət və dövlətin inkişafında siyasi, sosial, iqtisadi və mədəni meyarlar əsas kimi götürülür [4, s. 383].

Ölkəmizin ərazisi tarixən sivilizasiyanın qədim yaşayış və dövlət qurumlarının olduğu məskənlərdən biri sayılır. Belə ki, Azərbaycan ərazisində eramızdan əvvəl və bizim eranın əvvəllərinədək Manna, Midiya, Atropatena, Albaniya kimi dövlətlər mövcud olmuşdir. Həmin dövlətlərdə hüququn ilkin mənbəyi bu ərazilərdə yaşayan tayfaların adətləri, sonralar isə, eyni zamanda, zərdüştiliyin müqəddəs kitabı olan Avesta və hökmdarların sərəncamları olmuşdur. Avestanın hüquqi institutların nisbətən dolğun mənzərəsinin əks olunduğu Vendidadın IV fəslində mülki və nikah məsələləri ilə yanaşı, bir sıra cinayətlər üstündə tətbiq olunmuş cəzalardan bəhs olunmuşdur. Ümumiyyətlə, qədim Azərbaycan hüququna görə (VII əsrə kimi) cəzanın növləri aşağıdakılardan ibarət olmuşdur: a) ölüm cəzası; b) həbsxana cəzası; c) bədən cəzası; ç) günahın yuyulması; d) qan intiqamı [3, s. 31].

VII-IX əsrlərdə Azərbaycan ərazisi ərəb xilafətinin hakimiyyəti altında olmuşdur. Bu dövrdən XIX əsrin axırlarına kimi Azərbaycanda hüququn əsas mənbəsini şəriət və müsəlman hüququ normaları təşkil etmişdir. X-XII əsrlərdə Azərbaycan ərəb xilafəti əsarətindən azad olmağa və yeni müstəqil feodal dövlətlərinin yaranmasına nail olsa da, XIII - XIV əsrlərdə Azərbaycan monqolların əsarəti altına düşmüşdür. XV əsr Qaraqoyunlu, Ağqoyunlu və Şirvanşahlar dövlətlərinin, XVI-XVII əsrlər Səfəvilər dövlətinin, XVIII əsr xanlıqlar dövrü olsa da, bu dövlətlərdə şəriət normaları ictimai münasibətləri tənzim edən əsas mənbə olmuşdur. Beləliklə, uzun bir tarixi dövr ərzində ölkəmizdə, digər növ hüquq münasibətləri kimi, cinayət hüquq münasibətləri də müsəlman hüququ ilə tənzimlənmişdir. Ona görə də bu hüquq sistemində xüsusi müsadirənin tətbiqi məsələsinə diqqət yetirməyimiz məqsədəuyğun olar.

Onu da vurğulamağı unutmayaq ki, bəşəriyyətin tarixi boyunca cəza tədbiri olaraq ilk öncə əvəzçıxma meyarına, daha sonra mərhəmət prinsipinə üstünlük verilmişdir. Getdikcə əsas şərtin cəzanın cinayətin ağırlığına adekvat olması, daha sonra isə məsuliyyətin və cəza tədbirinin tətbiqinin labüdlüyü olduğu qəbul edilmişdir. Ədəbiyyatda qeyd olunur ki, heç bir müqəddəs kitabda mərhəmətin üstünlüyünə Qurani-Kərim qədər əhəmiyyət verilməmişdir. Əvvəlki dinlərdən – yəhudilik və xristianlıqdan fərqli olaraq İslamda nə “diş əvəzinə diş”, nə də sağ yanağına vurana

sol yanağını da çevir" düsturunda bir hədd yoxdur. Quran isə qızıl qayda müəyyən edir, əgər sülhü bərpa edib, cinayətkarın özünə fayda gətirilə bilindikdə, bağışlanma uyğun sayılır. Çünki cəzanın məqsədi hər şeydən əvvəl cinayətkarı islah etməkdir [8, s. 172-173].

Bununla bağlı müqəddəs kitabın ayələrinə də mənbə (sübut) kimi istinad olunur: "Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi (savabı) verilər. Kim pis iş görərsə, ona həmin işin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz" (surə 6, ayə 160). Yaxud bir başqa ayədə göstərilir: "Hər hansı pisliyin cəzası onun özü kimi bir pislikdir. Bununla belə, hər kəs (pislik edəni) bağışlasa və (onunla) barışsa, onun mükafatı Allaha aiddir. Həqiqətən, O, zalımları sevməz!" (Surə 42, ayə 40) [6].

Ümumi şəkildə şəriət adlandırılan müsəlman hüququnda hüququn sahələrə bölgüsü aparılmır, onun nəzəri əsası və əsas mənbəsi Quran sayılır. Müsəlman hüququnun (fiqh) digər mənbələrini Sünnə, Qiyas, İcma və Ürf təşkil edir. Sünnə Məhəmməd Peyğəmbərin sözlərini, davranışını, təqdir etdiyi halları əks edir və daha çox hədis kimi təqdim olunur. Şəriətin əsas mənbələri qismində Quran və Sünnə çıxış edir. Qiyas məchul hökmlərin həllini məlum hökmlərdə axtarmağı və müqayisə olunan iki prosesin sübutları arasında səbəbiyyət əlaqəsinin olmasını nəzərdə tutur. İcma müctəhidlərin, ilahiyatçı alimlərin eyni bir məsələ üzrə gəldikləri ümumi rəyi əks etdirir. Ürf yerli adət hüququnu ifadə edir, lakin bu, islam müddəalarına zidd olmalı deyildir. Beləliklə, müsəlman cinayət hüququnun səciyyəvi cəhətlərindən biri onun dini mənşəyə və təbiətə malik olmasıdır. Bəxzi cəza növləri (ölüm cəzası, bədənin müəyyən hissələrinin kəsilməsi, daş-qalaq etmə və s.) müsəlman hüququnda hüdud kateqoriyası ilə sistemə salınmışdır.

Onu da qeyd etməliyik ki, müqəddəs Qurani-kərimin yalnız 2, 4 və 5-ci surələrində hüquqi normalar öz əksini geniş şəkildə tapmışdır. Bəzi müəlliflərə görə, müqəddəs ilahi kitabda ailə və miras mövzusuna 70, borc mövzusuna 80, məhkəmə prosesi mövzusuna 13, dövlət hüququ mövzusuna 30, mülki məsələlər üzrə 100, cinayət və cəza mövzusuna 30 ayə həsr olunmuşdur [5, s. 248].

İslam dinində, digər dinlər kimi, günah əməllər və onların ağırlıq dərəcəsinə görə təsnifatı müəyyən edilir. İslama görə, günah İlahi əmr və qadağalara zidd olan sözlər, əməllər və işlərdir. Ən böyük günahlara aşağıdakılar aid edilir: 1) şirk (çoxallahlılıq) – Allahdan başqasını və ya başqa bir kimsənin ilahiləşdirilməsi; 2) insanın öldürülməsi; 3) valideynlərə itaətsizlik edilməsi (tabe olmamaq); 4) yalan danışmaq. Qeyd etmək lazımdır ki, digər dinlər kimi, islam dini də günahı, eyni zamanda, cinayət kimi qəbul edir, başqa sözlə, burada günah anlayışı cinayət anlayışı ilə eyniləşdirilir [8, s. 176-177]. Bunların hər birinin də Qurani-kərimdə təsdiqinə dair müddəalar vardır. Məsələn, Qurani-kərimin əl-Bəqərə (inək) surəsinin 217-ci ayəsində buyrulur: "... Sizdən hər kəs öz dinindən dönüb kafir olaraq ölərsə, belə kimsələrin bütün əməlləri (vaxtılə gördüyü yaxşı işləri) dünya və axirətdə heçə gedər. Onlar cəhənnəmlikdirlər və əbədi olaraq orada qalacaqlar" [6].

Ümumiyyətlə, islama görə kafirlik dinsizliyin (küfrün)ən pis növü sayılır və ən ağır nəticəni, habelə ən sərt cəzanı doğurur. Kafirlik edən mürtəd adlandırılır, islamın həqiqiliyini inkar edir və bununla da özünün mənəvi və hüquqi ölümünü qazanmış olur. O, bütün hüquqlarından məhrum edilir, eyni zamanda, bütün əmlakı müsadirə olunur. Lakin islam dini məktəblərində bu əmələ görə əmlak müsadirəsinin tətbiqi həcmi ilə bağlı vahid mövqe yoxdur. Əgər şafi məzhəbinə görə kafirlik edənin bütün əmlakı müsadirə olunmalıdırsa, hənəfi məzhəbibə görə onun yalnız cinayətin törədilməsindən sonra qazanmış olduğu əmlakı müsadirə oluna bilər, cinayətə qədərki əmlakı isə müsadirənin predmetinə düşməyib, varislərinə çatası miras əmlak kimi bölünməlidir [12, s. 113].

Şəriət ilə cinayət sayılan əməllərə görə, ümumən, aşağıdakı cəza tədbirlərinin tətbiqi nəzərdə tutulur:

1) törədilmiş əmələ eyni bir əməl ilə cavabın verilməsi (talion prinsipi);

2) tökülmüş qana görə qan bahası və ya cərimənin ödənilməsi (diyə);

3) Qiyas (müqayisə, bənzətmə) əsasında tətbiq edilən cəza;

4) Qazinin təyin etdiyi cəza [3, s. 81].

Hüdud ilə cəzalandırılan əməllərin dairəsinə ogurluq, quldurluq, zina , kafirlik və s. bu kimi əməllər daxildir. İslam dinində xüsusi mülkiyyət toxunulmaz və müqəddəs hesab edildiyindən, şəriətdə bu sferaya daxil olan münasibətlərə qəsd etməyə görə kifayət qədər sərt cəzalar nəzərdə tutulmuşdur. Qurani-kərimdə buyrulur: "Oğru kişi ilə oğru qadının gördükləri işin əvəzi kimi Allahdan cəza olaraq (sağ) əllərini kəsin" (surə 5, ayə 38). Şəriətin xüsusi mülkiyyəti möhkəm şəkildə müdafiə etməsi özgə əmlakını qəsd etmə əməllərinə görə məsuliyyət nəzərdə tutan cəza tədbirlərində qabarıq şəkildə biruzə çarpır. Məsələn, qəsbkarlıq, yəni başqa şəxsin mülkiyyət hüquqlarından məhrum edilməsi günah sayılır və bu əməli törədən şəxsi ağır əzab-əziyyət gözləyir. Bunun əsası kimi Məhəmməd peyğəmbərin aşağıdakı kəlamına istinad olunur: "Əgər kimsə başqasının bir qarış torpağını zorla əlindən alarsa, Qiyamət günü bir qarış torpaq yeddi qat ələmə çevriləcək və onun çiyinlərinə düşəcəkdir" [3, s. 86].

Mənbələrdə qeyd olunur ki, islam dini cinayət yolu ilə müsəlman icmasının hesabına qazanılmış əmlakın dövlət nəfinə müsadirə olunmasını nəzərdə tutmuşdur və bu cəza növü, əsasən, ordu sərkərdələrinə, vergi əməkdaşlarına və yerli idarəçilərə tətbiq olunmuşdur. Hətta xəlifənin təyin etdiyi bəzi məmurlar əmlak xarakterli cinayətlər ilə xalqın mal-mülkünü talamış, vergi müvəkkilləri əhalinin məlumatsızlığından istifadə edərək daha çox miqdarda vergi toplamışlar. Sonuncu halda xəlifə həmin vergi işçilərini cəzalandırmış, artıq toplanmış vergini isə yetimlərə, yoxsullara, dul qadınlara, digər ehtiyaclı insanlara paylanılması üçün dövlətin xəzinəsinə keçirmişdir [13, s. 78]. Bundan başqa, xəlifəyə xəyanət üstündə ölüm cəzası və ya zindanda həbs cəzası ilə yanaşı, təqsirkarın əmlakının dövlət nəfinə müsadirə olunması cəzası tətbiq olunmuşdur [9].

Ümumiyyətlə, indiki Azərbaycan ərazisində XIX əsrin əvvəllərinədək, yəni Rusiya İmperiyasının işğalınadək olan dövrdə hüququn əsas mənbəyini şəriət normaları təşkil etmişdir. Ayrı-ayrı hökmdarların dövründə qəbul olunmuş aktlar (məsələn, Ağqoyunlu padşahı Uzun Həsənin Qanunnaməsi, Car-Balakən mahalının Car-Tala Qanunnaməsi və s.) islam dininin təsirindən azad ola bilməmişdir. 1751-ci il dekabrın 20-də indiki Zaqatala rayonunun Ağdam kəndi məclisində qəbul edilmiş Car-Tala Qanunnaməsi, əsasən, şəriət ilə yerli adət hüququnun simbiozundan ibarət olmuşdur. 1828-ci il 10 fevral Türkmənçay müqaviləsi ilə Şimali Azərbaycanın Rusiya imperiyası tərəfindən ilhaqının rəsmiləşdirilməsindən sonra Azərbaycanın dini hüquq sistemindən dünyəvi hüquq sisteminə keçidi başlanmışdır. İşğaldan sonra Azərbaycanda xanlıqların ləğv edilib əyalətlərə çevrilməsi ilə yanaşı, bu imperiyanın cinayət qanunvericiliyinin tətbiqinə başlanılmışdır. Rusiya İmperiyası XX əsrə 1845-ci il Cinayət və İslah cəzaları haqqında qanunnaməsi ilə (1866-cı il və 1885-ci il redaksiyaları ilə birlikdə) daxil olmuşdur. Rusiya cinayət qanunvericiliyinin Ümumi və Xüsusi hissə formalarında sistemləşdirməsi ilk dəfə məhz bu Qanunnamədə baş vermişdir [11, s. 35].

Rusiya qanunvericiliyi tarixində cinayət cəzasının növü kimi mərhum etmə və ələ keçirmə şəklində əmlakın müsadirə olunmasını nəzərdə tutan ilk hüquqi aktın Rus Pravdasının genişləndirilmiş redaksiyasının (XII əsrin əvvəlləri) olduğu qeyd edilir. Sovet hakimiyyəti

dövründə hüquq sistemi kifayət qədər ideoloji təsirin altında olduğundan, həmin dövrdə yazılmış ədəbiyyatda göstərilmiş aşağıdakı fikrə təəcüblənmək lazım gəlmir ki, cəmiyyətdə yaranmış sosial bərabərsizliyin dərinləşməsi sinfi mübarizənin kəskinləşməsinə və son nəticədə yoxsul təbəqəni təmsil edən şəxslər tərəfindən feodalların malikanələrinin yandırılması hallarının çoxalmasına gətirib çıxarmışdır. Ona görə də qanunverici bu növ əməllərə görə məsuliyyətin sərtləşdirilməsi təklifi ilə çıxış edən feodalların səsini eşitməyə məcbur olmuşdur [15, s. 68]. S.V.Yuşkov hesab etmişdir ki, slavyan xalqlarına mərhum etmə və ələ keçirmə şəklində əmlakın müsadirəsi icmanın arzuolunmaz üzvlərinin icmadan qovularaq əmlaklarının icmanın xeyrinə müsadirə olunması hallarının baş verdiyi ibtidai icma quruluşu dövründə məlum olmuşdur [20, s. 399].

Rusiya cəmiyyətində əmlak xarakterli cəza tədbiri kimi cərimə cəzasından dövlətin cinayət-hüquqi təsir vasitəsi olaraq daha geniş miqyasda istifadə olunsa da, daha sərt əmlak cəzası kimi müsadirənin tətbiqinə həmişə ehtiyac duyulmuşdur. Bu cəza növü yalnız cinayətkarın deyil, həmçinin onun bütün ailə üzvlərinin əmlaklarının ələ keçirilməsinə imkan vermişdir. İlk əvvəl müsadirə olunmuş əmlak knyaz ilə yanaşı, cinayətdən zərərçəkmiş şəxsin arasında bölünürdüsə, sonradan knyaz Yaroslavlın Kilsə məhkəmələri haqqında Nizamnaməsinə əsasən, həmin əmlakdan müəyyən pul məbləği şəklində haqqın kilsələrə ödənilməsi şərti müəyyən edilmişdir [18].

Maraqlıdır ki, Rusiyanın XV əsrə qədər olan daha sonrakı hüquq abidələrində əmlakın müsadirəsi cəza tədbiri kimi nəzərdə tutulmamışdır. Bu haqda müddəalara yenidən 1497-ci il və 1550-ci il Sudebniklərində rast gəlinir və cəza tədbiri kimi oğurluq, quldurluq, adam öldürmə və digər cinayətlərə görə tətbiq edilməsi müəyyən edilir. Lakin Rus Pravdasından fərqli olaraq, burada müsadirə olunmuş əmlakın dövlətin (knyazın – E.H.) və ya kilsənin nəfinə deyil, ədalət mühakiməsini həyata keçirən məhkəmənin və ya zərərçəkmişin xeyrinə əldə olunması, bununla da məhkəmə xərclərinin bir hissəsinin qarşılanması nəzərdə tutulmuşdur [10].

Rusiyanın 1649-cu il Məclis Qanunnaməsində əmlak müsadirəsinin ağır cinayətlər (məsələn, hökmdar, dövlət və dövlət qulluğu əleyhinə törədilən) üstündə əlavə cəza tədbiri kimi tətbiq edilməsi təsbit olunmuşdur. Müsadirə olunmuş əmlakın taleyi törədilmiş cinayətdən bilavasitə asılı olmuşdur. Əgər hökmdar, dövlət və dövlət qulluğu əleyhinə törədilən cinayətlərə görə müsadirə olunmuş əmlakın bütünlüklə dövlət nəfinə keçirilməsi müəyyən olunmuşdursa, qəsdən adam öldürmə cinayətinin törədilməsinə görə həmin əmlakın yarısının dövlətin, yarısının isə öldürülmüş şəxsin dul qalmış arvadı və uşaqlarının xeyrinə keçirilməsi nəzərdə tutulmuşdur. Oğurluq və quldurluq cinayətlərində isə, əksinə, müsadirə olunmuş əmlak hesabına, ilk növbədə, zərərçəkmişlərin tələbləri təmin edilmiş, qalan hissəsi isə hökmdarın xeyrinə keçirilmişdir [19, s. 85].

Rusiya imperiyası tarixində II Yekaterinanın rolu digər heç bir hökmdar ilə müqayisə olunmur və burada istisna yalnız I Pyotra məxsusdur. II Yekaterinanın dövründə dövlət hakimiyyəti xeyli dərəcədə güclənmək ilə yanaşı, siyasi-hüquq sistemində də irəliyə doğru müəyyən islahatlar aparılmışdır. Çariçənin üstün cəhətlərindən biri də həmin dövrdə qərb ölkələrinin mütərəqqi qanunvericilik sistemlərini Rusiyaya gətirmək istəyi və bu yolda göstərdiyi cəhdlər olmuşdur. II Yekaterinanın nəinki öz dövrünün, hətta özündən sonrakı dövrlərin tarixinə böyük hüquq mütəfəkkiri kimi adını yazdırmış Çezare Bekkariaya xoş münasibət bəsləməsi və onu fəaliyyət göstərməsi üçün Peterburqa dəvət etməsi bu cür təqdirəlayiq işlərindən biridir. Dahi Ç.Bekkariya hesab edirdi ki, sürgün cəzasına məhkum olunmuş və burada ölmüş şəxsin müsadirə olunmuş əmlakı dövlətin nəfinə deyil, onun qanuni varislərinə keçməlidir. O, eyni zamanda, müsadirənin zəif adamların çiyinləri üzərində ağır bir yük olduğunu, təqsirsiz adamların bundan əzaba düçar olub,

cinayətə yuvarlandıqlarını göstərmişdir [2, s. 32]. II Yekaterina bu ideyaların təsiri altında zadəganların miras əmlakının müsadirə olunmasına qadağa qoymuş və zadəgan nəslini təmsil edən şəxslərin müsadirə olunması mümkün olan əmlakları yalnız məhkəmə qərarı ilə həyata keçirilmişdir.

Rusiyada 1649-cu il Qanunnaməsi dövründən başlayaraq XVIII əsrin sonunadək qanunvericiliyin məcəllələşdirilməməsi hüquq sisteminin inkişafına mənfi təsir göstərmişdir. Uzun müddət ərzində toplanmış qanunvericilik aktları arasında bir-birinə zidd olan müddəaların sayı az olmamışdır. Odur ki, məcəllələşdirilmə bir zərurət kimi ortaya çıxmışdır. Məcəllələşdirməni həmçinin dövrün ictimai-iqtisadi və ictimai-siyasi şəraiti tələb etmişdir. Rusiyada formalaşmağa və inkişaf etməyə başlamış kapitalist münasibətləri qanunvericiliyin yeniləşdirilməsi zərurətini yaratmışdır.

Rusiyada məcəllələşdirmə istiqamətində atılan addımlar 1767-ci ildə II Yekaterina tərəfindən yeni Qanunnamə layihəsini hazırlamaq üçün komissiyanın yaradılması ilə müşayiət olundu. Lakin komissiyanın fəaliyyətində müxtəlif silklərin maraqları bir-biri ilə toqquşduğundan uğur əldə oluna bilinmədi. 1804-cü ildə M.M.Speranskinin rəhbərliyi altında cinayət, mülki və ticarət qanunnamələrinin layihələri hazırlandı, lakin bu da uğursuzluqla nəticələndi. Öz növbəsində, Rusiyanın işğal etdiyi Azərbaycanın əyalətlərində komendant idarəçilik sisteminin tətbiqi ilə əlaqədar müsəlman hüquq normaları tədricən ümumrusiya qanunları tərəfindən sıxışdırılırdı. İmperatorun 1831-ci il fərmanı ilə cinayət işləri şəriət məhkəmələrinin yurisdiksiyasından götürüldü, məhkəmələrdə işlərə baxılması və həlli zamanı Rusiya qanunlarının və yerli adətlərin tətbiqinə başlanıldı. M.M.Speranskinin rəhbərliyi altında hazırlanmış yeni "Cinayət və islah cəzaları haqqında Qanunnamə" imperator I Nikolay tərəfindən 1845-ci ildə təsdiq olundu və 1846-cı ildə qüvvəyə mindi. Bu Qanunnamədə əsas cinayət cəzalarına bütün hüquq, imtiyaz və üstünlüklərdən məhrumetmə və ölüm, bütün hüquq, imtiyaz və üstünlüklərdən məhrumetmə və katorqaya sürgün, bütün hüquq, imtiyaz və üstünlüklərdən məhrumetmə və Sibirə sürgün, bütün hüquq, imtiyaz və üstünlüklərdən məhrum etmə və Qafqaza sürgün cəzaları aid edildi. Əlavə cəzalara isə aşağıdakılar aid idi: hüquqlardan məhrumetmə, peşmanlıq, müsadirə, qəyyumluğu təsis etmə, polisin nəzarətinə vermə, müəyyən işlə məşğul olmağı qadağan etmə [7, s. 41].

1845-ci il Qanunnaməsinin bəhs etdiyimiz mövzuda əvvəlki qanunvericilik aktlarından fərqli cəhəti bundan ibarət olmuşdur ki, burada cinayət törətmiş şəxsin ümumi əmlakının müsadirə olunması ilə yanaşı, xüsusi müsadirə - mülki dövriyyəsi qadağan olunmuş əşyaların, cinayətin törədilməsində istifadə olunmuş alət və vasitələrin, habelə cinayət yolu ilə əldə olunmuş predmetlərin müsadirə olunması nəzərdə tutulmuşdur [17]. Müsadirə institutunun hüquqi tənzimlənməsində 1864-cü il 20 noyabr tarixli Məhkəmə Nizamnaməsi bir az da irəli gedərək, əmlakın ümumi şəkildə müsadirəsini deyil, yalnız xüsusi müsadirəsini nəzərdə tutmuşdur [16].

1861-ci ilin fevral ayında Rusiya imperiyasında təhkimçilik hüququ ləğv edildi. Bu Rusiya tarixində geçikmiş, lakin çox mühüm olan hadisə ölkənin bütün ictimai-siyasi həyatını əhatə edən sferalarında əsaslı dəyişikliklərin baş verməsinə səbəb olmuş və kapitalist-burjua islahatlarının həyata keçirilməsini şərtləndirmişdir. 1845-ci il Cinayət və islah cəzaları haqqında Qanunnaməsi isə geriliyi üzündən həmin dövrün yeni sənaye, aqrar və məhkəmə islahatları ilə ziddiyyət təşkil etdiyindən, 1866 və 1885-ci illərdə onun yeni redaksiyaları qəbul edilmişdir.

Eyni zamanda, yeni qanunnamənin layihəsi üzərində iş aparılmışdır. Yeni layihə 1885-ci ilin axırları üçün demək olar ki, hazır olsa da, onun təsdiqi kifayət qədər vaxt aparmışdır. Belə ki, çar II Nikolay 1995-ci ildə layihəni yenidən gözdən keçirmək üçün Ədliyyə Nazirliyinə göndərmiş və

1998-ci ildə artıq Rusiya Dövlət Dümasında onun müzakirəsinə başlanılmışdır. 1903-cü ilin fevralında Dövlət Dümasının ümumi iclasında layihə cüzi istisnalarla qəbul edilmiş, 22 mart 1903-cü il tarixdə Rusiya imperatoru II Nikolay Qanunnaməni təsdiq etmişdir. Lakin yeni Qanunnamənin qüvvəyə minməsi bu haqda müvafiq qərarın qəbul edilməsi tarixinədək təxirə salınmış və nəticə etibarı ilə qanunnamə bütöv haında və ölkənin bütün ərazisində qüvvəyə minməmişdir. Bununla belə, ədəbiyyatda düzgün olaraq göstərilmişdir ki, 1903-cü il Cinayət Qanunnaməsi Rusiya qanunvericilik sisteminin kapitalizm cəmiyyətinin inkişafına uyğunluğunun təmin edilməsi istiqamətində atılan ilk addım olmuşdur. Qanunnamə bundan əvvəlki qanunnamələrlə müqayisədə həm hüquq texnikası, həm də cinayət hüquq institutlarının formuləsi nöqteyi nəzərindən daha mükəmməl sənəd olmuş, Avropa cinayət məcəllələrinin təsirini özündə əks etdirməklə o dövrün cinayət hüququ nəzəriyyəsi səviyyəsində olmuşdur [1, s. 54].

1903-cü il Cinayət Qanunnaməsinin (687 maddədən ibarət olmuşdur) ümumi hissəsinin normaları “Cinayət əməlləri və cəzaları” adlanan və 72 maddədən ibarət olan I fəsildə öz əksini tapmışdır. Burada cinayətin anlayışı, təsnifatı, cəzanın sistemi, cəzanın yüngülləşdirilməsi, ağırlaşdırılması, əvəz olunması məsələləri təsbit olunmuşdur. Cinayətlər təyin edilən cəzanın ağırlıq dərəcəsindən asılı olaraq 3 kateqoriyaya təsnif olunmuşdur: ağır cinayətlər, cinayətlər və hüquq pozuntuları [4, s. 390]. Rusiyanın bundan əvvəlki cinayət-hüquqi aktlarından fərqli olaraq 1903-cü il Qanunnaməsinin spesifik cəhəti burada “əmlak müsadirəsi” terminindən deyil, “xüsusi müsadirə” termininin istifadə olunmasıdır. Bu, təsadüfi deyildi və həmin dövrün hüquqşünas alimlərinin əksəriyyətinin əmlakın ümumi şəkildə müsadirə olunmasına neqativ münasibət bəsləmələri ilə bağlı olmuşdur. Məsələn, N.D.Serqeyevski (1849-1908) yazmışdır ki, cinayət cəzası kimi ümumi müsadirənin çatışmazlığı individuallığı tam surətdə istisna etməsidir. Ölüm cəzasına və ya ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunanlar üçün müsadirə cəzası heç bir əhəmiyyət kəsb etmir, əksinə, bu halda onların ailə üzvləri əziyyətə düçar olur. Yaxud həmin dövrün digər məşhur hüquqşünas alimi N.S.Taqansev (1843-1923) əlavə cəza tədbiri kimi xüsusi müsadirənin ölüm cəzasına və ya ömürlük azadlıqdan məhrum etmə cəzasına məhkum olunan şəxslərə münasibətdə əhəmiyyətsiz olduğunu, çünki onun yükünün tam olaraq təqsirsiz şəxslərin üzərinə düşdüyünü, müstəqil cəza tədbiri kimi isə xüsusi müsadirənin son dərəcə qeyri-tənləşdirici və məqsədsiz olduğunu göstərmişdir [14, s. 14-15].

1917-1920-ci illər Rusiya və onun işğalı altında olan ərazilərdə bolşeviklərin hakimiyyətə gəldiyi, eyni zamanda, imperiyada vətəndaş müharibəsinin başlanması və azərbaycan xalqının belə bir tarixi şəraitdə 1918-ci ilin mayın 28-də öz istiqlaliyyətini elan edərək, şərqdə ilk cumhuriyyət olan Azərbaycan Demokratik Respublikasının yaranıb fəaliyyət göstərdiyi dövrüdür. Lakin həmin dövrdə, Rusiyada fevral inqilabından sonra olduğu kimi, Azərbaycanda da ikihakimiyyətlilik (Bakıda Bakı Xalq Komissarları Soveti, Gəncədə isə ADR hökuməti) mövcud olmuşdur. Bu səbəbdən həmin dövrdə Azərbaycanda qanunverijilik parəkəndə vəziyyətdə olmuş, Bakı Sovetinin qanunvericilik fəaliyyətində Rusiyada hakimiyyətə gəlmiş sovetlərin aktları əsas götürülmüş, Xalq Cümhuriyyəti hökumətinin diqqəti isə başlıca olaraq qanunvericiliyin əsas istiqamətlərinin müəyyən edilməsinə yönəlmişdir. Bununla belə, ADR-in Nazirlər Şurası qısa müddət ərzində vacib olan qanunları yaratmaq imkanında olmadığını yəqin etdiyindən, 23 iyun 1918-ci il tarixdə Rusiya və Zaqafqaziya Seyminin qanunlarının ADR ərazisində müvəqqəti qüvvədə olmasına dair qərar qəbul etmişdir. Ona görə də ADR hakimyyəti dövründə ölkəmizdə cinayət-hüquqi münasibətlər sferasında Rusiya imperiyasının 1845-ci il Cinayət və islah cəzaları Qanunnaməsi (sonrakı dəyişiklikləri ilə birlikdə) qüvvədə olmuşdur.

Qeyd edilənlərə yekun vuraraq göstəririk ki, müsadirə ilk əvvəl cəza tədbiri kimi ölkəmizin həm Rusiya imperiyasının işğalınadək olan dövrdə, həm də həmin imperiyanın tərkibində olduğu dövrdə qüvvədə olmuş və cinayət-hüquqi münasibətlərini tənzim edən əsas normativ aktlarında təsbit olunmuşdur. Müxtəlif dövrlərdə ondan fərqli məqsədlər üçün istifadə edilsə də (bir halda qorxu yaratmaq, digər halda dövlətə və ya zərərçəkmişə vurulmuş ziyanın ödənilməsi və s.), müsadirə cəza tədbiri kimi, adətən, ağır cinayətlərin törədilməsinə münasibətdə tətbiq olunmuşdur. Cəmiyyət və dövlətin ümumi inkişafı ilə müsadirənin cinayət cəzasının bir növü kimi tətbiqindən, təqsirkarın əmlakının, törətdiyi cinayət ilə bağlılığının olub olmamasından asılı olmayaraq, bütün əmlakının müsadirə olunmasından imtina edilmiş və cinayət-hüquqi xarakterli tədbir kimi xüsusi müsadirənin tətbiqinə başlanılmışdır.

**Biblioqrafiya**

1. Cinayət hüququ. Ümumi hissə (Mütərcimləri: A.Kərimov, X.Orucov, A.Xancanboyev). Bakı: Azərnəşr, 1950. - 210 s.

2. Çezare Bekkaria. Cinayətlər və cəzalar haqqında. Bakı, “Hüquq ədəbiyyatı” nəşriyyatı, 2011. - 132 s.

3. Əkbərov R.A., Səlimov S.M. Azərbaycanın dövlət və hüquq tarixi. «Diqesta» nəşriyyatı, Bakı, 2001. - 488 s.

4. Əliyev N.K. AzərbaycanRespublikasının qüvvədə olan cinayət qanunvericiliyində həyat və sağlamlıq əleyhinə iştirakçılıqla törədilən cinayətlərlə mübarizənin tarixi kökləri (sovet hakimiyyətinə qədər olan dövr) // Azərbaycan MEA-nın Xəbərləri. Tarix, fəlsəfə və hüquq seriyası, 2011, № 1, s. 381-395.

5. İsmayılzadə Mirzə Rəsul Duzal. İran İslam Respublikasının cinayət hüququna bir baxış // Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. EMM. 20-ci buraxılış, 2008. S. 247-254.

6. Qurani-Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov və V.M.Məmmədəliyev. Məsləhətçi-redaktor: Şeyxülislam Hacı Allahşükür Paşazadə. Bakı: Olimp konserni, 1990. - 652 s.

7. Nəbiyev E.Q. XIX əsrdə Rusiyada cinayət qanunvericiliyinin məcəllələşdirilməsi və onun Azərbaycanda tətbiqi məsələləri // Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası. №3, 2010, S. 40-55.

8. Rəhimov İ.M. Din və cəza. Ön söz hüquq elmləri doktoru, professor A.İ.Korobeyev. Bakı, “Avropa” nəşriyyatı, 2021. - 240 s.

9. Зокиров З.Х. Конфискация имущества в мусульманском уголовном праве [Электронный ресурс]. Режим доступа: https://cyberleninka.ru/article/n/konfiskatsiya-imuschestva-v-musulmanskom-ugolovnom-prave/viewer (müraciət tarixi: 14.12.2021)

10. Казанцев М.Г. Зашита интересов государевых и прав собственников в судебниках 1497, 1550 и 1589 годов. [Электронный ресурс]. Режим доступа: https://cyberleninka.ru/article/n/zaschita-interesov-gosudarevyh-i-prav-sobstvennikov-v-sudebnikah-1497-1550-i-1589-godov-1/viewer (müraciət tarixi: 09.12.2021)

11. Кузнецова Н.Ф. Историко-сравнительный анализ неоконченного преступления и соучастия // Вест. Моск. Ун-та. Сер. 11. Право. 1993. № 5. С. 34-37.

12. Манна А.А.К. Ответственность за вероотступничество по мусульманскому уголовному праву // Вестник РУДН, серия Юридические науки, 2013, № 2. С. 111-115.

13. Петровский А.В. Мусульманское уголовное право и особенности уголовного законодательства мусульманских государств: монография. Краснодар: Кубанский гос. ун-т, 2013. 91 с.

14. Пропостин А.А. Конфискация имущества: прошлое, настоящее, будущее. М.: Юрлитинформ, 2011. - 264 с.

15. Рогов В.А. Государственный строй Древней Руси. Учебное пособие. М.: РИО ВЮЗИ, 1984. - 80 с.

16. Судебные уставы 20 ноября 1864 года. [Электронный ресурс]. Режим доступа: https://www.prlib.ru/item/372590 (müraciət tarixi: 09.12.2021)

17. Уложение о наказаниях уголовных и исправительных 1845 г. [Электронный ресурс]. Режим доступа: http://museumreforms.ru/node/13654 (müraciət tarixi: 09.12.2021)

18. Устав князя Ярослава Владимировича о церковных судах. XI-XIII вв. [Электронный ресурс]. Режим доступа: http://xn--e1aaejmenocxq.xn--p1ai/node/13620 (müraciət tarixi: 14.12.2021)

19. Чистяков О.И. Российское законодательство X-XX веков в 9 т. Том 3. Акты Земских соборов. М.: Юридическая литература, 1985. - 512 с.

20. Юшков С.В. История государства и права России (IX-XIX вв.). Изд. доп. и перераб. Ростов н/Д: Феникс, 2003. - 735 с.

**Hasanov E.R.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.65.24-37**
**UDC 343.24**

## The history of the development of special confiscation as a criminal legal measure in Azerbaijan (pre-Soviet period)

**Abstract**: Among the successful measures to combat crime, it is important to bring the legislation on protection of public relations from criminal conspiracies in line with the requirements of the time, to replace the norms that do not meet the challenges of the time with new ones, to improve the legislation. At present, national criminal law prioritizes the development and strengthening of non-custodial measures in practice. This is not an accidental tendency, but is related to the fulfillment of obligations arising directly from the relevant documents signed by the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, to determine the criminal law policy of the country.

Thus, the draft law prepared by the Presidential Administration in accordance with the Order of the President dated February 10, 2017 "On improving the penitentiary system, humanizing the penal policy and expanding the use of alternative punishment and non-custodial measures" dated October 20, 2017 Adopted by the Milli Majlis on The law made significant changes to the Criminal Code to mitigate criminal law policy, established new mechanisms for exemption from criminal liability, decriminalized some crimes in the economic sphere. Articles 73-1 and 73-2 with the new

♦ **Hasanov Emin Rasif oglu** - Dissertation of the Center of Forensic Examination of the Ministry of Justice of the Republic of Azerbaijan (Azerbaijan). Email: hasanovmin@yahoo.com

content "Exemption from criminal liability for crimes" were created and other changes were made in this direction.

In addition, on April 3, 2019, the President signed a decree "On deepening reforms in the judicial system". One of the tasks set before the relevant state bodies in this Decree, which is the legal basis of a new qualitative stage of judicial reform in our country, is to humanize the penal policy in the country, to continue measures to decriminalize.

Thus, the development of criminal law policy in the country in these areas significantly raises the issue of more effective use of criminal measures. In modern conditions, special confiscation has a special place among criminal measures. By the way, special confiscation is one of the most effective means of influencing crime as a whole, not only in the fight against serious or high-risk crimes (eg, terrorism, corruption, drug trafficking, etc.). Special confiscation is also an important element of the system of preventive measures in the fight against crime.

**Keywords**: criminal law; confiscation; special confiscation; criminal punishment; legislation; muslim law; responsibility; legal regulation.

**References**

1. *Cinayet huququ. Umumi hisse* (Mutercimleri: A.Kerimov, X.Orucov, A.Xancanboyev). [Criminal Law. General Part. (Translators: A.Kerimov, X.Orucov, A.Xancanboyev)]. Baku: Azerneshr Publ., 1950, 210 p.

2. Cesare Beccaria. *Cinayetlər ve cezalar haqqinda* [On Crimes and punishments]. Baku, Huquq edebiyyati [Law Literature] Publ., 2011, 132 p.

3. Akberov R.A., Salimov S.M. *Azerbaycanin dovlet ve huquq tarixi* [History of Azerbaijan state and Law]. Baku, Digesta Publ., 2001, 488 p.

4. Aliyev N.K. *Azerbaycan Respublikasinin quvvede olan cinayet qanunvericiliyinde həyat ve saglamliq aleyhine istirakciliqla toredilen cinayetlerle mubarizenin tarixi kokleri (sovet hakimiyye-tine qeder olan dovr)* [Historical roots of the combat to crimes against life and health in the valid criminal legislation of the Republic of Azerbaijan (pre-Soviet power period)] // *Azerbaycan MEA-nin Xabarlari. Tarix, felsefe ve huquq seriyasi - News of Azerbaijan NAS. Series of History, Philos-ophy and Law.* 2011, no. 1, pp. 381-395.

5. Ismayilzade Mirza Resul Duzal. *Iran Islam Respublikasinin cinayet huququna bir baxis* [An overview of the criminal law of the Islamic Republic of Iran] // *Azerbaycan Respublikasinda dovlet ve huquq quruculugunun aktual problemleri. EMM. 20-ci buraxilis – Problems of designing of the state and law in Azerbaijan Republic. 20th issue*, 2008. pp. 247-254.

6. *Qurani-Kerim.* Arab dilinden tercume edenler: Z.M.Bunyadov ve V.M.Mammadaliyev. Meslehetci-redaktor: Seyxulislam Haci Allahsukur Pasazade [The Holy Quran. Translator Z.M.Bunyadov and V.M.Mammadaliyev. Consultant-editor: Seyxulislam Haci Allahsukur Pasaza-de]. Baku, Olimp Publ., 1990, 652 p.

7. Nabiyev E.Q. *XIX asrde Rusiyada cinayet qanunvericiliyinin mecellelesdirilmesi ve onun Azerbaycanda tetbiqi meseleleri* [Codification of criminal law in Russia in 19 century and issues of its application in Azerbaijan]. *Baki Universitetinin Xaberleri. Sosial-siyasi elmler seriyasi-News of Baku University. Social-political sciences Series.* 2010. No. 3, pp. 40-55.

8. Rahimov I.M. *Din ve ceza*. On soz huquq elmleri doktoru, professor A.İ.Korobeyev [Religion and punishment. Introduction by Doctor of Law, Professor A.I. Korobeyev]. Baku, Avropa Publ., 2021, 240 p.

9. Zokirov Z.Kh. *Konfiskatsiya imuschestva v musul'manskom ugolovnom prave* [Confiscation of property in Muslim criminal law]. Available at: https://cyberleninka.ru/article/n/konfiskatsiya-imuschestva-v-musulmanskom-ugolovnom-prave/viewer (accessed: 14.12.2021).

10. Kazantsev M.G. *Zaschita interesov gosudarev i prav sobstevennikov v sudebnikakh 1497, 1550 i 1598 godov* [Protection of sovereign and rights of owners in codes of law of 1497, 1550 and 1598]. Available at: https://cyberleninka.ru/article/n/zaschita-interesov-gosudarevyh-i-prav-sobstvennikov-v-sudebnikah-1497-1550-i-1589-godov-1/viewer (accessed: 09.12.2021)

11. Kuznetsova N.F. *Istoriko-sravnitel'nyi analiz neokonchennogo prestupleniya i souchastiya* [Historical comparative analysis of unfihished crime and complicity]. // *Vestnik Mosk. Un-ta. Ser. Pravo – Gerald of Moscow University. Law Series*. 1993, no 5, pp. 34-37.

12. Manna A.A.K. *Otvetstvennost' za verootstupnichestvo po musul'manskomu ugolovnomu pravu* [Responsibility for apostasy under Muslim criminal law] // *Vestnik RUDN, seriya Yuridicheskie nauki – Gerald of RUFP, Series of Legal Sciences*. 2013, no. 2, pp. 111-115.

13. *Petrovsky A.V. Musul'manskoe ugolovnoe pravo i osobennosti ugolovnogo zakonodatel'stva musul'manskikh gosudarstv: monografiya [Muslim criminal law and features of the criminal legislation of Muslim states. Monograph]*. Krasnodar, Kuban State University Publ., 2013, 91 p.

14. *Propostin A.A. Konfiskatsiya imuschestva: proshloe, nastoyaschee, buduschee [Confiscation of property: past, present, future]. Moscow, Yurlitinform Publ., 2011, 264 p.*

15. Rogov V.A. *Gosudarstvennyi story Drevney Rusi*. Uchebnoe posobie [State system of Ancient Russia. Teaching aid]. Moscow, RIO VYuZI Publ., 1984, 80 p. *Рогов* В.*А*.

16. *Sudebnye ustavy 20 noyabrya 1864 goda* [Judicial Charters of 20 November 1864]. Available at: https://www.prlib.ru/item/372590 (accessed: 09.12.2021)

17. *Ulozhenie o nakazaniyakh ugolovnykh i ispravitel'nykh 1845 g.* [Code of Criminal and Correctional punishments of 1845]. Available at: http://museumreforms.ru/node/13654 (accessed: 09.12.2021)

18. *Ustav knyazya Yaroslava Vladimirovicha o tserkovnykh sudakh 11-13 v.v.* [Charter of Prince Yaroslav Vladimirovich on church courts]. Available at: http://xn--e1aaejmenocxq.xn--p1ai/node/13620 (accessed: 07.12.2021).

19. Chistyakov O.I. *Rossiyskoe zakonodatel'stvo 10-20 vekov v 9 t. T. 3. Akty Zemskikh soborov* [Russian legislation of 10-20 centuries. In 9 vol. Vol. 3. Acts of Zemsky Sobors]. Moscow, Yuridicheskaya literature, 1985, 512 p.

20. Yushkov S.V. *Istoria gosudarstva i prava Rossii (9-19 v.v.)* [History of state and law of Russia (9-19 centuries)]. Amen. and suppl. Rostov/Don, Fenix Publ., 2003, 735 p.

**Гасанов Э.Р.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.65.24-37**
**УДК 343.24**

# История развития специальной конфискации, как уголовно-правовой меры в Азербайджане (досоветский период)

**Аннотация**: Среди успешных мер по борьбе с преступностью можно назвать адаптацию законодательства для защиты общественных отношений от преступных посягательств, изменению устоявшихся норм, не отвечающих вызовам времени, совершенствование законодательства на основе научно-теоретических и практических аргументов. В настоящее время отечественное уголовное законодательство отдает приоритет развитию и закреплению на практике правовых мер, не связанных с лишением свободы. Это не случайная тенденция, а связанная с выполнением обязательств, вытекающих непосредственно из соответствующих документов, подписанных Президентом Азербайджанской Республики г-ном Ильхамом Алиевым, по определению уголовно-правовой политики страны.

Так, законопроект, подготовленный Администрацией Президента в соответствии с распоряжением Президента Азербайджанской Республики об упорядочении деятельности в пенитенциарной сфере, гуманизации политики наказания, а также расширении применения альтернативных видов наказания и процессуальных мер принуждения, не связанных с изоляцией от общества, с 20 октября 2017 г. был принят Милли Меджлисом. Этим законом были внесены существенные изменения в Уголовный кодекс АР, служащий для смягчения уголовно-правовой политики, установлены новые механизмы освобождения от уголовной ответственности, также декриминализованы некоторые преступления в экономической сфере. В УК созданы статьи 73-1 и 73-2 с новым содержанием «Освобождение от уголовной ответственности за преступления против собственности», «Освобождение от уголовной ответственности за преступления в сфере экономической деятельности» и внесены другие изменения в данное направление.

Кроме того, 3 апреля 2019 года Президент подписал Указ об углублении реформ в судебно-правовой системе. Одной из задач, поставленных перед соответствующими государственными органами в данном Указе, являющемся правовой основой нового качественного этапа судебной реформы в нашей стране, является гуманизация уголовно-исполнительной политики в стране, продолжение мероприятий по декриминализации.

Таким образом, развитие уголовно-правовой политики в этих сферах ставит вопрос о более эффективном применении уголовно-правовых мер. В современных условиях особое место среди уголовно-правовых мер занимает специальная конфискация. Специальная конфискация является одним из наиболее эффективных средств для воздействия на преступность в целом, а не только в борьбе с тяжкими преступлениями или преступлениями повышенной опасности (например, терроризмом, коррупцией, незаконным оборотом наркотиков

[♦] **Гасанов Эмин Расиф оглы** - диссертант Центра Судебной Экспертизы Министерства Юстиции Азербайджанской Республики (Азербайджан). E-mail: hasanovmin@yahoo.com

и т. д.). Специальная конфискация также является важным элементом системы мер пресечения в борьбе с преступностью.

**Ключевые слова**: уголовное право; конфискация; специальная конфискация; уголовное наказание; законодательство; мусульманское право; ответственность; правовое регулирование.

**Библиография**

1. Уголовное право. Общая часть (перев. А. Керимов, Х. Оруджев, А. Ханджанбоев) – Баку: Азернешр, 1950. -210 с. (на азерб. яз.).

2. Чезаре Беккария. Преступления и наказания. - Баку: Юридическая литература, 2011. - 132 с. (на азерб. яз.).

3. Акперов Р.А., Салимов С.М. История азербайджанского государства и права. - Баку: Дигеста, 2001. - 448 с. (на азерб. яз.).

4. Алиев Н.К. Исторические корни борьбы с преступлениями против жизни и здоровья в действующем уголовном законодательстве Азербайджанской Республики (досоветский период) // Новости НАНА. Серия: История. Философия и Право. - 2011. №1. – С. 381-395 (на азерб. яз.).

5. Исмаилзаде Мирза Расул Дузал. Взгляд на уголовное право Исламской Республики Иран // Актуальные проблемы строительства государства и права в Азербайджанской Республике. ЕММ. 20 вып., 2008. - С. 247-254 (на азерб. яз.).

6. Священный Коран. Перевод с арабского языка З.М. Буньядова, В.М. Мамедалиева. Консультант-редактор Шейхульислам Аллахшюкюр Пашазаде. - Баку: Олимп, 1990. - 652 с. (на азерб. яз.).

7. Набиев Е.Г. Кодификация Российского уголовного законодательства 19 в. и вопросы его применения в Азербайджане // Новости Бакинского университета. Серия: Социально-политические науки. -2010. - №3. - С. 40-55.

8. Рагимов И.М. Религия и наказания. Вступление дюн, профессора А.И. Коробеева. Баку: Авропа, 2021. – 240 с. (на азерб. яз.).

9. Зокиров З.Х. Конфискация имущества в мусульманском уголовном праве [Электронный ресурс]. Режим доступа: https://cyberleninka.ru/article/n/konfiskatsiya-imuschestva-v-musulmanskom-ugolovnom-prave/viewer (дата обращения: 14.12.2021)

10. Казанцев М.Г. Зашита интересов государевых и прав собственников в судебниках 1497, 1550 и 1589 годов. [Электронный ресурс]. Режим доступа: https://cyberleninka.ru/article/n/zaschita-interesov-gosudarevyh-i-prav-sobstvennikov-v-sudebnikah-1497-1550-i-1589-godov-1/viewer (дата обращения: 09.12.2021)

11. Кузнецова Н.Ф. Историко-сравнительный анализ неоконченного преступления и соучастия // Вест. Моск. Ун-та. Сер. 11. Право. 1993. - № 5. - С. 34-37.

12. Манна А.А.К. Ответственность за вероотступничество по мусульманскому уголовному праву // Вестник РУДН, серия Юридические науки, 2013,- № 2. - С. 111-115.

13. Петровский А.В. Мусульманское уголовное право и особенности уголовного законодательства мусульманских государств: монография. - Краснодар: Кубанский гос. ун-т, 2013. - 91 с.

14. Пропостин А.А. Конфискация имущества: прошлое, настоящее, будущее. - М.: Юрлитинформ, 2011. - 264 с.

15. Рогов В.А. Государственный строй Древней Руси. Учебное пособие. - М.: РИО ВЮЗИ, 1984. - 80 с.

16. Судебные уставы 20 ноября 1864 года. [Электронный ресурс]. Режим доступа: https://www.prlib.ru/item/372590 (дата обращения: 09.12.2021)

17. Уложение о наказаниях уголовных и исправительных 1845 г. [Электронный ресурс]. Режим доступа: http://museumreforms.ru/node/13654 (дата обращения: 09.12.2021)

18. Устав князя Ярослава Владимировича о церковных судах. XI-XIII вв. / http://xn--e1aaejmenocxq.xn--p1ai/node/13620 (дата обращения: 07.12.2021)

19. Чистяков О.И. Российское законодательство X-XX веков в 9 т. Том 3. Акты Земских соборов. - М.: Юридическая литература, 1985. - 512 с.

20. Юшков С.В. История государства и права России (IX-XIX вв.). Изд. доп. и перераб. - Ростов н/Д: Феникс, 2003. - 735 с.